Boy (sm)	121-125	126-130	131-135	136-140	141-146
Şagird sayı	4	9	10	16	11

A) 121 - 125 B) 126 - 130 C) 131 - 135
D) 136 - 140 E) 141 - 146

38. Cədvəldə şagirdlərin iyirmi beş suallıq riyaziyyat imtahanında cavablandırdıqları düzgün sualların say aralıqları və bu aralıqlara görə şagird sayları verilmişdir. Cədvələ görə orta qiyməti ən böyük olan sinfə neçə şagird daxildir?

Sinif (sual sayı)	1-5	6-10	11-15	16-20	21-25
Tezlik (şagird sayı)	3	5	9	6	2

A) 9 B) 6 C) 5 D) 3 E) 2

CamScanner ilə skan edilib

39. Cədvəldə məktəbin 6-cı sinif şagirdlərinin boylarının ölçüləri və sayları verilmişdir. Ən böyük nisbi tezlik neçə faizdir?

Boy (sm)	121-125	126-130	131-135	136-140	141-146
Şagird sayı	4	9	10	16	11

A) 18 % B) 20 % C) 28 % D) 32 % E) 44 %

40. Cədvəldə şagirdlərin iyirmi beş suallıq riyaziyyat imtahanında cavablandırdıqları düzgün sualların say aralıqları və bu aralıqlara görə şagird sayları verilmişdir. Ən böyük nisbi tezlik neçə faizdir?

Sinif (sual sayı)	1-5	6-10	11-15	16-20	21-25
Tezlik (şagird sayı)	3	5	9	6	2

A) 10 % B) 12 % C) 15 % D) 36 % E) 45 %

41. 1, 2, 2, 3, 3, 3, 4, 4, 4, 4 ədədlər sırasının medianı ilə modasının cəmini tapın.
A) 6 B) 7 C) 8 D) 9 E) 10

42. Aşağıdakı ədədlər sıralarından hansı ikimodalıdır?
A) 3, 3, 8, 8, 9 B) 3, 5, 7, 9, 11
C) 4, 6, 8, 10, 12 D) 4, 6, 8, 8, 9
E) 3, 3, 3, 8, 17

43. Ən kiçik 7 mürəkkəb ədəddən ibarət sıranın ən böyük fərqini tapın.
A) 10 B) 11 C) 12 D) 13 E) 14

44. 9; 6; 3; 7; 5; x ədədlər sırasının ən böyük fərqi 14 olarsa, x aşağıdakılardan hansı ola bilər?
A) 16 B) 17 C) 18 D) 19 E) 20

45. Fabrikdəki işçilərin kq-la verilmiş kütlələri üçün qurulmuş paylanma cədvəlinə görə kütləsi 65-69 kq olan işçilərin sayının kütləsi 80-84 kq olan işçilərin sayından neçə % az olduğunu tapın.

Kütlə (kq)	Sayı
65-69	4
70-74	7
75-79	3
80-84	5

A) 10 B) 15 C) 20 D) 25 E) 30

Permutasiya. Kombinezon

1. Hesablayın: $3! + 4!$
A) 15 B) 24 C) 30 D) 36 E) 42

2. Hesablayın: $\frac{8!}{6!}$
A) 56 B) 64 C) 72 D) 86 E) 90

3. Hesablayın: $\frac{10!}{8!}$
A) 48 B) 70 C) 80 D) 90 E) 110

4. Hesablayın: $\frac{5!+6!}{4!}$
A) 15 B) 25 C) 35 D) 45 E) 55

5. Hesablayın: $\frac{9!+8!}{10!-8!}$
A) $\frac{20}{69}$ B) $\frac{10}{89}$ C) $\frac{15}{97}$ D) $\frac{20}{109}$ E) $\frac{15}{44}$

6. Kəsri ixtisar edin: $\frac{n!}{(n-1)!}$
A) $\frac{1}{n-1}$ B) n! C) (n – 1)!
D) n – 2 E) n

7. Kəsri ixtisar edin: $\frac{(n+1)!}{(n-1)!}$
A) n + 1 B) $n^2 + n$ C) n – 1
D) $n^2 - n$ E) $\frac{1}{n-1}$

8. Kəsri ixtisar edin: $\frac{(n+3)!\,n!}{(n+1)!\,(n+2)!}$
A) $\frac{n+3}{n}$ B) $\frac{n+2}{n+1}$ C) $\frac{n+4}{n-1}$
D) $\frac{n+3}{n+1}$ E) $\frac{n}{n-1}$

CamScanner ilə skan edilib

9. Kəsri ixtisar edin: $\frac{(n+2)!-(n+1)!}{n!}$

A) n + 1 B) n + 2 C) n^2
D) $(n+1)^2$ E) n − 1

10. $\frac{1}{(n-1)!}-\frac{1}{n!}=\frac{n-1}{24}$ olarsa, n = ?

A) 2 B) 4 C) 5 D) 6 E) 8

11. Hesablayın: ${}_6P_6$

A) 120 B) 240 C) 360
D) 600 E) 720

12. Hesablayın: ${}_4P_4$

A) 12 B) 24 C) 48 D) 64 E) 120

13. Hesablayın: $\frac{{}_{11}P_{11}}{{}_9P_9}$

A) 90 B) 110 C) 180
D) 220 E) 360

14. $\frac{{}_nP_n}{{}_{n-1}P_{n-1}}$ ifadəsini sadələşdirin.

A) n − 1 B) n C) n + 1
D) $n^2 - n$ E) $n^2 + n$

15. $\frac{{}_{n-2}P_{n-2}}{{}_{n-1}P_{n-1}}$ ifadəsini sadələşdirin.

A) n − 2 B) n − 1 C) $\frac{1}{n-1}$
D) $\frac{1}{n-2}$ E) n

16. 12345 ədədinin rəqəmlərinin yerini dəyişməklə neçə müxtəlif ədəd yazmaq olar?

A) 120 B) 64 C) 24
D) 20 E) 12

17. "QAR" sözündəki hərflərin yerini dəyişməklə neçə oxunuşu müxtəlif olan söz düzəltmək olar?

A) 2 B) 3 C) 5 D) 6 E) 12

18. "USTA" sözündəki hərflərin yerini dəyişməklə neçə oxunuşu müxtəlif olan söz düzəltmək olar?

A) 3 B) 6 C) 12 D) 24 E) 48

19. "MANAT" sözündəki hərflərin yerini dəyişməklə neçə oxunuşu müxtəlif olan söz düzəltmək olar?

A) 24 B) 60 C) 96
D) 120 E) 720

20. "SƏBƏB" sözündəki hərflərin yerini dəyişməklə neçə oxunuşu müxtəlif olan söz düzəltmək olar?

A) 12 B) 24 C) 30
D) 60 E) 120

21. Hesablayın: ${}_3P_2$

A) 2 B) 3 C) 6 D) 12 E) 24

22. Hesablayın: ${}_{11}P_2$

A) 11 B) 22 C) 55
D) 110 E) 120

23. Hesablayın: $\frac{{}_7P_2 \cdot {}_4P_3}{{}_6P_6}$

A) $\frac{2}{3}$ B) $\frac{6}{7}$ C) $\frac{7}{6}$ D) $\frac{7}{5}$ E) $\frac{4}{7}$

24. Hesablayın: $\frac{{}_5P_1+{}_1P_1}{{}_5P_3}$

A) $\frac{1}{10}$ B) $\frac{1}{5}$ C) $\frac{3}{5}$ D) $\frac{5}{3}$ E) 4

CamScanner ilə skan edilib

25. ${}_nP_1 = {}_5P_4$ olarsa, n-i tapın.
A) 624 B) 360 C) 240
D) 120 E) 20

26. ${}_nP_3 = 8 \cdot {}_nP_2$ olarsa, n-i tapın.
A) 8 B) 10 C) 11 D) 12 E) 16

27. A = {1; 3; 5; 7; 9} çoxluğunun elementlərindən düzəldilmiş rəqəmləri müxtəlif olan ikirəqəmli ədədlərin sayını tapın.
A) 25 B) 24 C) 20 D) 16 E) 15

28. A = {3; 4; 5; 6; 7; 8} çoxluğunun elementlərindən düzəldilmiş rəqəmləri müxtəlif olan üçrəqəmli ədədlərin sayını tapın.
A) 720 B) 120 C) 96
D) 60 E) 24

29. Hesablayın: ${}_3C_2$
A) 2 B) 3 C) 6 D) 12 E) 15

30. Hesablayın: ${}_7C_5$
A) 7 B) 12 C) 21 D) 35 E) 48

31. ${}_nC_2 = 3$ olarsa, n-i tapın.
A) 1 B) 3 C) 6 D) 12 E) 24

32. $6 \cdot {}_nC_5 = {}_nP_4$ olarsa, n-i tapın.
A) 16 B) 18 C) 20 D) 22 E) 24

33. A = {a; b; c; d} çoxluğunun 2 elementli alt çoxluqlarının sayını tapın.
A) 2 B) 6 C) 12 D) 24 E) 48

34. A = {1; 2; 3; 4; 5} çoxluğunun üç elementli çoxluqlarından neçəsində 4 iştirak etmir?
A) 2 B) 4 C) 6 D) 20 E) 50


35. Düşərgədə 15 nəfərlik şagirdlərdən 2 nəfərlik növbətçini neçə üsulla təyin etmək olar?
A) 105 B) 150 C) 190
D) 210 E) 360

36. 9 nəfərlik qrupdan 4 nəfəri neçə fərqli şəkildə seçmək olar?
A) 504 B) 126 C) 96
D) 84 E) 48

37. 4 vəkil və 3 hakimin olduğu bir qrupdan 2 vəkil ilə 1 hakimi neçə fərqli şəkildə seçmək olar?
A) 18 B) 20 C) 24 D) 30 E) 36

38. 6 qız ilə 8 oğlanın olduğu bir qrupdan 2 qız ilə 2 oğlanı neçə fərqli şəkildə seçmək olar?
A) 120 B) 210 C) 320
D) 420 E) 560

39. d_1 və d_2 şüaları üzərindəki nöqtələrin ikisindən keçməklə bu düz xətləri kəsən neçə düz xətt çəkmək olar?
A) 12 B) 18
C) 20 D) 24
E) 36



40. Çevrə üzərindəki nöqtələrin ikisindən keçməklə neçə düz xətt çəkmək olar?
A) 6 B) 15
C) 30 D) 45
E) 60



41. ${}_9C_3 + {}_9P_2$ cəminin qiymətini hesablayın.
A) 168 B) 156 C) 144
D) 132 E) 120

42. $\frac{{}_5P_5 - {}_7P_3}{{}_6C_3}$ ifadəsinin qiymətini hesablayın.
A) –2,5 B) –3 C) –3,5 D) –4 E) –4,5

43. 1, 2, 3, 4 rəqəmlərindən, rəqəmləri fərqli olan neçə ikirəqəmli ədəd yazmaq olar?
A) 6 B) 12 C) 16 D) 20 E) 24

44. 1; 2; 3; 4 və 5 rəqəmlərinin köməyi ilə rəqəmləri fərqli neçə üçrəqəmli natural ədəd düzəltmək olar?
A) 125 B) 81 C) 60 D) 48 E) 24

45. 0, 1, 2, 3 və 4 rəqəmlərinin köməyi ilə rəqəmləri müxtəlif olan neçə üçrəqəmli ədəd düzəltmək olar?
A) 5^3 B) 3^5 C) $5 \cdot 4 \cdot 3$
D) $5 \cdot 4$ E) $4 \cdot 4 \cdot 3$

CamScanner ilə skan edilib

Ehtimal

1. Dəmir pulu bir dəfə atıldıqda hər hansı üzün düşməsi hadisəsi üçün neçə mümkün hal var?
A) 1 B) 2 C) 3 D) 4 E) 5

2. Zəri bir dəfə atdıqda hər hansı xalın düşməsi hadisəsi üçün neçə mümkün hal var?
A) 1 B) 3 C) 6 D) 9 E) 12

3. Dəmir pulu iki dəfə atdıqda hər hansı üzün düşməsi hadisəsi üçün neçə mümkün hal var?
A) 2 B) 3 C) 4 D) 6 E) 8

4. Zəri iki dəfə atdıqda hər hansı xalın düşməsi hadisəsi üçün neçə mümkün hal var?
A) 2 B) 6 C) 12 D) 36 E) 64

5. Dəmir pulu üç dəfə atdıqda hər hansı üzün düşməsi hadisəsi üçün neçə mümkün hal var?
A) 2 B) 3 C) 6 D) 8 E) 9

6. Zəri bir dəfə atdıqda 3 xalının düşməsi hadisəsi üçün əlverişli halların sayını tapın.
A) 1 B) 2 C) 3 D) 4 E) 6

7. Zəri bir dəfə atdıqda düşən xalın 6-dan böyük olması üçün əlverişli halların sayını tapın.
A) 0 B) 1 C) 3 D) 6 E) 7

8. Zəri bir dəfə atdıqda düşən xalın mürəkkəb ədəd olması üçün əlverişli halların sayını tapın.
A) 1 B) 2 C) 3 D) 4 E) 6

9. Zəri iki dəfə atdıqda düşən xalların cəminin 9 olması üçün əlverişli halların sayını tapın.
A) 1 B) 2 C) 3 D) 4 E) 5

10. Zəri iki dəfə atdıqda düşən xalların cəminin 10-dan böyük olması üçün əlverişli halların sayını tapın.
A) 5 B) 4 C) 3 D) 5 E) 1

11. Zəri bir dəfə atdıqda 5 xalının düşməsi hadisəsinin ehtimalını tapın.
A) $\frac{1}{2}$ B) $\frac{1}{3}$ C) $\frac{1}{4}$ D) $\frac{1}{5}$ E) $\frac{1}{6}$

12. Zəri bir dəfə atdıqda tək ədədin düşməsi hadisəsinin ehtimalını tapın.
A) $\frac{1}{2}$ B) $\frac{1}{3}$ C) $\frac{2}{3}$ D) $\frac{1}{6}$ E) $\frac{5}{6}$

13. Zəri bir dəfə atdıqda cüt ədədin düşməsi hadisəsinin ehtimalını tapın.
A) $\frac{1}{2}$ B) $\frac{1}{3}$ C) $\frac{2}{3}$ D) $\frac{1}{6}$ E) $\frac{5}{6}$

14. Zəri bir dəfə atdıqda 2 və ya 5 xalının düşməsi hadisəsinin ehtimalını tapın.
A) $\frac{1}{6}$ B) $\frac{1}{3}$ C) $\frac{1}{2}$ D) $\frac{2}{3}$ E) $\frac{5}{6}$

15. Zəri bir dəfə atdıqda hər hansı xalın düşməsi hadisəsinin ehtimalını tapın.
A) 1 B) $\frac{1}{2}$ C) $\frac{1}{3}$ D) $\frac{1}{6}$ E) 0

16. Zəri iki dəfə atdıqda düşən xalların cəminin 15-dən böyük olması hadisəsinin ehtimalını tapın.
A) 0 B) $\frac{1}{12}$ C) $\frac{1}{6}$ D) $\frac{1}{3}$ E) 1

17. Zəri iki dəfə atdıqda düşən xalların 13-dən kiçik olması hadisəsinin ehtimalını tapın.
A) 0 B) $\frac{1}{6}$ C) $\frac{1}{4}$ D) $\frac{1}{3}$ E) 1

18. Zəri iki dəfə atdıqda hər iki dəfə 6 xalının düşməsi hadisəsinin ehtimalını tapın.
A) $\frac{1}{36}$ B) $\frac{1}{18}$ C) $\frac{1}{12}$ D) $\frac{1}{6}$ E) $\frac{1}{3}$

CamScanner ilə skan edilib

19. Zəri iki dəfə atdıqda düşən xalların cəminin 5 olması hadisəsinin ehtimalını tapın.

A) $\frac{1}{18}$ B) $\frac{1}{12}$ C) $\frac{1}{9}$ D) $\frac{1}{6}$ E) $\frac{1}{3}$

20. Zəri iki dəfə atdıqda düşən xalların cəminin 8 olması hadisəsinin ehtimalını tapın.

A) $\frac{1}{4}$ B) $\frac{1}{6}$ C) $\frac{1}{9}$ D) $\frac{1}{12}$ E) $\frac{5}{36}$

21. Zəri iki dəfə atdıqda düşən xalların cəminin 4-dən kiçik olması hadisəsinin ehtimalını tapın.

A) $\frac{1}{12}$ B) $\frac{1}{9}$ C) $\frac{1}{6}$ D) $\frac{1}{4}$ E) $\frac{1}{3}$

22. Zəri iki dəfə atdıqda düşən xalların cəminin 3-dən böyük olması hadisəsinin ehtimalını tapın.

A) $\frac{11}{12}$ B) $\frac{5}{6}$ C) $\frac{3}{4}$ D) $\frac{1}{3}$ E) $\frac{1}{4}$

23. Zəri üç dəfə atdıqda hərə dəfə 2 xalının düşməsi hadisəsinin ehtimalını tapın.

A) $\frac{1}{6}$ B) $\frac{1}{9}$ C) $\frac{1}{12}$ D) $\frac{1}{36}$ E) $\frac{1}{216}$

24. Qutuda 5 qara kürəcik var. Qutudan çıxarılan bir kürəciyin qara olması hadisəsinin ehtimalını tapın.

A) 0 B) 0,2 B) 0,5 D) 0,8 E) 1

25. Qutuda 1 ağ və 3 qara kürəcik var. Qutudan çıxarılan bir kürəciyin qırmızı olması hadisəsinin ehtimalını tapın.

A) 0 B) 0,25 C) 0,5
D) 0,75 E) 1

26. Qutuda 2 ağ və 3 qara kürəcik var. Qutudan çıxarılan bir kürəciyin ağ olması hadisəsinin ehtimalını tapın.

A) 0,2 B) 0,4 C) 0,5 C) 0,6 E) 0,8

27. Qutuda 5 ağ, 9 qara və 6 sarı kürəcik var. Qutudan götürülən bir daşın ağ və ya sarı olması hadisəsinin ehtimalını tapın.

A) $\frac{11}{20}$ B) $\frac{9}{20}$ C) $\frac{1}{4}$ D) $\frac{3}{10}$ E) $\frac{1}{10}$

28. Qutuda 6 ağ və 10 qara daş var. Qutudan götürülən iki daşın hər ikisinin ağ olması hadisəsinin ehtimalını tapın.

A) $\frac{15}{16}$ B) $\frac{3}{4}$ C) $\frac{1}{5}$ D) $\frac{9}{16}$ E) $\frac{1}{8}$

29. Qutuda 9 ağ və 6 qara daş var. Qutudan götürülən iki daşdan birinin ağ, digərinin isə qara olması hadisəsinin ehtimalını tapın.

A) $\frac{18}{35}$ B) $\frac{12}{35}$ C) $\frac{3}{15}$ D) $\frac{3}{5}$ E) $\frac{1}{5}$

30. Torbada 6 ağ, 2 qara və 4 sarı kürə var. Torbadan çıxarılan 3 şarın müxtəlif rənglərdə olması hadisəsinin ehtimalını tapın.

A) $\frac{36}{91}$ B) $\frac{12}{55}$ C) $\frac{2}{55}$ D) $\frac{9}{91}$ E) $\frac{1}{36}$

31. Sinifdəki 20 şagirdin 14-ü əlaçı deyil. Seçilmiş bir şagirdin əlaçı olması ehtimalını tapın.

A) $\frac{1}{20}$ B) $\frac{2}{5}$ C) $\frac{1}{5}$ D) $\frac{3}{10}$ E) $\frac{3}{5}$

32. $A=\{1;2;3;4;5;6\}$ çoxluğunun elementlərindən seçilmiş bir elementin 3-dən böyük olması ehtimalını tapın.

A) $\frac{1}{6}$ B) $\frac{1}{3}$ C) $\frac{1}{2}$ D) $\frac{2}{3}$ E) $\frac{5}{6}$

CamScanner ilə skan edilib

33. Üzərində L, M, A, E, R hərfləri yazılmış kağız vərəqlərini yanaşı düzdükdə "ELMAR" adının alınması ehtimalını tapın.

A) $\frac{1}{120}$ B) $\frac{1}{360}$ C) $\frac{1}{720}$ D) $\frac{1}{5040}$ E) $\frac{1}{72}$

34. Üzərində Ə, Z, X, Ə, R hərfləri yazılmış kağız vərəqlərini yanaşı düzdükdə "XƏZƏR" adının alınması ehtimalını tapın.

A) $\frac{1}{60}$ B) $\frac{1}{90}$ C) $\frac{1}{120}$ D) $\frac{1}{720}$ E) $\frac{1}{729}$

35. Bir qrupda 10 şagirddən 6-sı əlaçıdır. Seçilən 9 şagirddən 5-inin əlaçı olması ehtimalını tapın.

A) $\frac{4}{5}$ B) $\frac{14}{55}$ C) $\frac{3}{5}$ D) $\frac{2}{11}$ E) $\frac{2}{3}$

36. Dostuna zəng etmək istəyən Ramil nömrənin sonuncu rəqəmini unutmuşdur. Ramilin təsadüfən yığdığı nömrənin düzgün olması ehtimalını tapın.

A) $\frac{1}{10}$ B) $\frac{1}{9}$ C) $\frac{1}{90}$ D) $\frac{1}{100}$ E) $\frac{1}{5}$

37. Dostuna zəng etmək istəyən Elman nömrənin sonuncu 3 rəqəmini unutmuşdur. Bu rəqəmlər müxtəlif olarsa, Elmanın təsadüfən yığdığı nömrənin düzgün olması ehtimalını tapın.

A) $\frac{1}{10}$ B) $\frac{1}{90}$ C) $\frac{1}{100}$ D) $\frac{1}{720}$ E) $\frac{1}{729}$

38. Dəmir pul və zər eyni zamanda atılır. Pulun gerb üzünün, zərdə isə 6 xalın düşməsi hadisəsinin ehtimalını tapın.

A) $\frac{2}{3}$ B) $\frac{1}{3}$ C) $\frac{1}{12}$ D) $\frac{1}{6}$ E) $\frac{1}{2}$

39. 12 nəfərlik sinifdən 8 nəfər riyaziyyat olimpiadasına, 6 nəfər fizika olimpiadasına və 4 nəfər hər iki olimpiadaya hazırlaşır. Həmin sinifdən seçilmiş bir nəfərin olimpiadaya hazırlaşan olması ehtimalını tapın.

A) $\frac{11}{12}$ B) $\frac{5}{6}$ C) $\frac{3}{4}$ D) $\frac{1}{2}$ E) $\frac{7}{12}$

40. Qabda 6 şaftalı və 4 ərik var. Qabdan götürülmüş 3 meyvədən ən azı ikisinin şaftalı olmasının ehtimalını tapın.

A) $\frac{13}{66}$ B) $\frac{53}{60}$ C) $\frac{14}{15}$ D) $\frac{4}{5}$ E) $\frac{2}{3}$

41. Bir metal pul 3 dəfə atıldıqda bir dəfə yazı üzünün və iki dəfə xəritə üzünün düşməsi hadisəsinin ehtimalını tapın.

A) $\frac{1}{16}$ B) $\frac{1}{8}$ C) $\frac{3}{8}$ D) $\frac{5}{16}$ E) $\frac{1}{4}$

42. Zəri iki dəfə atdıqda hər dəfə 5 xalının düşməsi hadisəsinin ehtimalını tapın.

A) $\frac{1}{6}$ B) $\frac{1}{9}$ C) $\frac{1}{12}$ D) $\frac{1}{36}$ E) $\frac{1}{216}$

43. İki zəri atdıqda düşən xalların hasilinin 12 olması hadisəsi üçün əlverişli halların sayını tapın.

A) 6 B) 5 C) 4 D) 3 E) 2

44. Qutuda 4 ağ və 6 qırmızı kürəcik var. Qutudan təsadüfən götürülən iki kürəciyin eyni rəngdə olması ehtimalını tapın.

A) $\frac{3}{5}$ B) $\frac{7}{12}$ C) $\frac{7}{15}$ D) $\frac{7}{20}$ E) $\frac{8}{21}$

45. Yeşikdə 20 saf və bir neçə çürük limon var. Yeşikdən götürülən bir limonun çürük olma ehtimalı $\frac{1}{5}$ olarsa, çürük lomonların sayını tapın.

A) 1 B) 4 C) 5 D) 8 E) 10

CamScanner ilə skan edilib

46. Qutuda 3 ağ və 2 qara kürəcik var. Qutudan təsadüfən götürülən iki kürəciyin fərqli rəngdə olması ehtimalını tapın.

A) $\frac{1}{5}$ B) $\frac{1}{2}$ C) $\frac{2}{5}$ D) $\frac{3}{5}$ E) $\frac{7}{10}$

47. İki zəri atdıqda düşən xalların ən azı birinin tək ədəd olması hadisəsinin ehtimalını tapın.

A) $\frac{1}{6}$ B) $\frac{2}{3}$ C) $\frac{3}{4}$ D) $\frac{4}{5}$ E) $\frac{5}{6}$

48. 18 nəfərlik sinifdə 11 nəfər futbol, 10 nəfər voleybol oynayır. Bu oyunları oynayan şagirdlərdən 5 nəfəri isə həm futbol həm də voleybol oynayır. Təsadüfən seçilən bir şagirdin bu oyunlardan hər hansı birini ***oynamayan*** olması ehtimalını tapın.

A) $\frac{1}{5}$ B) $\frac{1}{6}$ C) $\frac{1}{7}$ D) $\frac{1}{8}$ E) $\frac{1}{9}$

49. Aralarında Vüsal və Səmanın olduğu 5 qız və 4 oğlan şagird arasından 3 qız və 2 oğlan seçiləcəkdir. Seçilənlər arasında Vüsal və Səmanın olması ehtimalını tapın.

A) $\frac{3}{20}$ B) $\frac{3}{10}$ C) $\frac{3}{5}$ D) $\frac{2}{5}$ E) $\frac{1}{5}$

50. Qutuda narıncı topların sayı sarı topların sayının 3 misli, qırmızı topların sayının isə 4 mislidir. Qutudan təsadüfən götürülən bir topun sarı olması ehtimalını tapın.

A) $\frac{3}{19}$ B) $\frac{4}{19}$ C) $\frac{6}{19}$ D) $\frac{12}{19}$ E) $\frac{13}{19}$

51. İçərisində 3 ağ və 2 qırmızı kürəcik olan qutudan ardıcıl iki kürəcik çıxarılır. Çıxarılan iki kürəcikdən yalnız birinin ağ olması ehtimalını tapın.

A) $\frac{1}{6}$ B) $\frac{1}{5}$ C) $\frac{2}{5}$ D) $\frac{3}{5}$ E) $\frac{4}{5}$

52. Qutuda 3 mavi, 5 sarı və 2 yaşıl kürəcik var. Qutudan təsadü-fən çıxarılan 1 kürəciyin mavi ***olmaması*** ehtimalını tapın.

A) $\frac{1}{2}$ B) $\frac{3}{5}$ C) $\frac{3}{4}$ D) $\frac{7}{10}$ E) $\frac{4}{5}$

53. 5-elementli çoxluğun alt çoxluqlarından biri təsadüfi seçilir. Seçilmiş çoxluğun 2-elementli olması ehtimalını tapın.

A) $\frac{5}{32}$ B) $\frac{1}{32}$ C) $\frac{5}{16}$ D) $\frac{1}{64}$ E) $\frac{1}{16}$

54. Qutuda 1-dən 25-ə qədər nömrələnmiş 25 kart var. Qutudan təsadüfi seçilmiş bir kartdakı nömrənin 3-ə bölünməsi hadisəsinin ehtimalını tapın.

A) 0,32 B) 0,3 C) 0,27
D) 0,24 E) 0,2

55. Zəri iki dəfə atdıqda aşağıdakı hadisələrdən hansının baş verməsi ehtimalı daha böyükdür?

A) xalların cəminin 10 olması
B) xalların fərqinin 2 olması
C) xalların hasilinin 12 olması
D) xalların eyni olması
E) xalların fərqli olması

CamScanner ilə skan edilib

03

Sınaqlar

CamScanner ilə skan edilib

Sınaq 1

1. $538 \cdot (7383 + 4626)$ ədədinin 4-ə bölünməsindən alınan qalığı tapın.
A) 0 B) 1 C) 2 D) 3 E) 4

2. $6-3:\frac{1}{2}-\left(5-\frac{1}{4}\right)$ ifadəsinin qiymətini hesablayın.
A) –4,75 B) –4,5 C) –3,75
D) 6,75 E) 1,25

3. $A = \{a; b; c; d; e\}$ və $B = \{b; c; e; f\}$ olarsa, $A \setminus B$ çoxluğunu tapın.
A) {a; b; c; d} B) {b; c; e}
C) {a; d} D) {b; c; f}
E) {a; d; e}

4. İşin 40 %-i görüldükdən sonra hansı hissəsi görülməmiş qaldı?
A) 0,2 B) 0,4 C) 0,5 D) 0,6 E) 0,8

5. x və y tam ədədlərdir. $-6 < x < -1$ və $x \cdot y = 21$ olarsa, $3x - 2y$ ifadəsinin qiymətini tapın.
A) –35 B) –27 C) 5 D) 27 E) 35

6. $\frac{24}{\sqrt{6}}$ kəsrinin məxrəcini irrasionallıqdan azad edin.
A) $4\sqrt{3}$ B) $4\sqrt{6}$ C) $8\sqrt{3}$ D) $8\sqrt{6}$ E) $12\sqrt{3}$

7. $\frac{-7^2-|-3|+(5-|7|)^3}{|6-11|}$ ifadəsinin qiymətini hesablayın.
A) –13 B) –12 C) 12 D) 13 E) 15


8. a və b natural ədədlərdir. $a \cdot b = 24$ olarsa, aşağıdakılardan hansı ***yanlışdır***?
A) a artdıqda b azalır.
B) a azaldıqda b artır.
C) a və b tərs mütənasib asılıdır.
D) a və b düz mütənasib asılıdır.
E) a və b qarşılıqlı sadə ədədlər ola bilər.

9. Aşağıdakılardan hansı $a^2 + a - 2ab - 2b$ ifadəsinin vuruq-larından biridir?
A) $a + 2b$ B) $a - 2b$ C) 2a – 1
D) $2a + 1$ E) $a - 1$

10. $2^{a-1} = 4$ olarsa, 4^{a-1} ifadəsinin qiymətini tapın.
A) 8 B) 16 C) 32 D) 64 E) 128

11. Aşağıdakılardan hansı üçbucağın tərəflərinin uzunluqları ola ***bilməz***?
A) 1 sm, 2 sm, 2 sm B) 3 sm, 3 sm, 3 sm
C) 1 sm, 7 sm, 7 sm D) 2 sm, 6 sm, 4 sm
E) 1 sm, $\sqrt{2}$ sm, 2 sm

12. ABC üçbucağında $BD \perp AE$, $AF = FE$, $AB = 6$ sm, $AD = 3$ sm və $EC = 2$ sm olarsa, DC-ni tapın.
A) 3 sm
B) 3,5 sm
C) 4 sm
D) 4,5 sm
E) 5 sm



13. $1975 \cdot 1981 - 1978^2$ ifadəsinin qiymətini hesablayın.
A) –3956 B) –1978 C) –144
D) –9 E) 0

14. Bir nöqtədən çevrəyə çəkilən iki toxunan arasındakı bucaq 80° olarsa, toxunma nöqtələrinin çevrədən ayırdığı kiçik qövs neçə dərəcə olar?
A) 80° B) 90° C) 100°
D) 110° E) 120°

15. $\sqrt[3]{4 \cdot \sqrt[3]{4 \cdot \sqrt[3]{4 \cdot \sqrt[3]{4 \cdot \ldots}}}}$ ifadəsinin qiymətini hesablayın.
A) 1 B) 2 C) 3 D) 4 E) $4\sqrt{3}$

CamScanner ilə skan edilib

16. Avtomobil 90 km məsafəyə 6 litr yanacaq işlədərsə, 450 km məsafəyə neçə litr yanacaq işlədər?

17. Uzunluqları $2x + 11$ və $3x - 7$ olan iki vətərin çevrədən ayırdığı qövslər bərabər olarsa, vətərlərin uzunluğunu tapın.

18. $x^3 - 5x + 3m - 4$ çoxhədlisinin sərbəst həddi 8 olarsa, m-i tapın.

19. $\sqrt{6+2\sqrt{5}} - \sqrt{6-2\sqrt{5}}$ ifadəsinin qiymətini hesablayın.

20. c-nin neçə natural qiymətində $\frac{5c-8}{c}$ ifadəsinin qiyməti natural ədədə bərabərdir?

21. Katetləri 5 sm və 12 sm olan düzbucaqlı üçbucağın düz bucaq təpəsindən çəkilmiş medianı neçə santimetrdir?

- ***Tapşırığın həlli üçün ayrılmış hissənin çərçivəsindən kənara çıxmayın.***
- ***Tapşırığın yekun cavabını qeyd etməklə yanaşı, həllin mərhələlərini aydın və ardıcıl şəkildə yazın.***
- ***Tapşırığın həllini sona qədər yaza bilməsəniz də, həll edə bildiyiniz yerə qədər yazın.***

22. 250 manata satılan məhsulun satış qiymətinə əvvəl 28 %, sonra isə alınan yeni qiymətə 25 % endirim edilir. Məhsulun ilkin satış qiymətinə görə ümumilikdə neçə faiz güzəşt edilir?

Cavab:

23. Çevrə üzərində A, B, C, D nöqtələri verilən ardıcıllıqla qeyd olunmuşdur. AB : BC : CD : AD = 2 : 3 : 4 : 6 olarsa, AC və BD vətərləri arasındakı iti bucağı tapın.

Cavab:

24. $\sqrt{4-\frac{19}{25}} - \frac{\sqrt{2,5}+\sqrt{14,4}}{\sqrt{22,5}}$ ifadəsinin qiymətini hesablayın.

Cavab:

25. $\frac{a^2-(b+c)^2}{a^2-bc-ac-b^2}$ ifadəsini sadələşdirin.

Cavab:

CamScanner ilə skan edilib


Sınaq 2

1. 987654321 ədədini tərtibini tapın.
A) 7 B) 8 C) 9 D) 10 E) 11

2. $a=3^{\frac{1}{2}}$; $b=4^{\frac{1}{3}}$ və $c=6^{\frac{1}{4}}$ ədədlərinin müqayisə edin.
A) $c<b<a$ B) $c<a<b$
C) $b<a<c$ D) $a<c<b$
E) $a<b<c$

3. $(2x+3y)^3=8x^3+Ax^2y+Bxy^2+27y^3$ olarsa, A + B cəmini tapın.
A) 93 B) 90 C) 66 D) 63 E) 39

4. AB və CD vətərləri O nöqtəsində kəsişirlər. AO = 4 sm, OB = 10 sm və CO = 8 sm olarsa, OD-ni tapın.
A) 3,2 sm
B) 4 sm
C) 4,5 sm
D) 5 sm
E) 6,4 sm



5. $k\cdot 0{,}0(06)$ hasili natural ədəd olarsa, k-nın ən kiçik qiymətini tapın.
A) 120 B) 135 C) 144
D) 150 E) 165

6. İki ardıcıl cüt natural ədədin ortaq ***olmayan*** sadə vuruqları-nın hasili 20 olarsa, bu ədədlərin hasilini tapın.
A) 80 B) 60 C) 40 D) 30 E) 20

7. Uzunluğu 12π sm olan çevrənin radiusunu tapın.
A) 4 sm B) 6 sm C) 12 sm
D) 18 sm E) 24 sm

8. Düz xətt üzərində A, B, C və D nöqtələri ardıcıl qeyd olunmuşdur. AC = 12 sm, BD = 15 sm və AD = 23 sm olarsa, BC-ni tapın.
A) 8 sm B) 7 sm C) 6 sm
D) 5 sm E) 4 sm

9. $|x|>x$ şərtini ödəyən ən böyük tam ədədi tapın.
A) 2 B) 1 C) 0 D) –1 E) –2


10. $2x^4\cdot 4\cdot\left(y^2\right)^2$ birhədlisini standart şəklə gətirin və əmsalı ilə dərəcəsinin cəmini tapın.
A) 8 B) 10 C) 12 D) 14 E) 16


11. Bərabəryanlı düzbucaqlı üçbucağın ağırlıq mərkəzindən iti bucaq təpəsinə qədər məsafə $2\sqrt{10}$ sm olarsa, hipotenuzunu tapın.
A) 6 sm B) $6\sqrt{2}$ sm C) $6\sqrt{3}$ sm
D) 12 sm E) $12\sqrt{2}$ sm


12. Yarımçevrənin uzunluğu 6π sm olarsa, bu yarımçevrənin uc nöqtələri arasındakı məsafəni tapın.
A) $6\sqrt{3}$ sm B) 12 sm C) $12\sqrt{2}$ sm
D) $12\sqrt{3}$ sm E) 18 sm


13. $2\sqrt{6}$ ədədinin tam hissəsini tapın.
A) 2 B) 3 C) 4 D) 5 E) 6


14. Aşağıdakı diaqramlardan hansında 48 və 54 ədədlərinin sadə vuruqları doğru yazılmışdır?

A)


B)


C)


D)


E)


15. Aşağıdakılardan hansı ilə $\sqrt[3]{2}+1$ ədədinin hasili irrasional ədəd ***deyil***?
A) $\sqrt[3]{4}+\sqrt[3]{2}+1$ B) $\sqrt[3]{4}-\sqrt[3]{2}+1$
C) $\sqrt[3]{4}-\sqrt[3]{2}-1$ D) $\sqrt[3]{4}+1$
E) $\sqrt[3]{2}-1$

CamScanner ilə skan edilib

16. $n(A \setminus B) = n(B \setminus A) = 6$ və $n(A \cup B) = 24$ olarsa, $n(A \cap B)$-ni tapın.

17. A ədədini 2; 3 və 6 ədədləri ilə tərs mütənasib hissələrə böldükdə alınan ədədlər natural ədədlərdir. A-nın ən kiçik natural qiymətini tapın.

18. Bərabərtərəfli üçbucağın xarici bucağının daxili bucağına nisbətini tapın.

19. a-nın hansı qiymətində $\frac{2a-12}{3a-12}$ ifadəsinin qiyməti 0-a bərabərdir?

20. Çevrənin BC vətəri AB diametrinin yarısına bərabər olarsa, ABC bucağının dərəcə ölçüsünü tapın.

21. $\sqrt{0,(4)} - \frac{0,1}{\sqrt{0,36}}$ ifadəsinin qiymətini hesablayın.

- ***Tapşırığın həlli üçün ayrılmış hissənin çərçivəsindən kənara çıxmayın.***
- ***Tapşırığın yekun cavabını qeyd etməklə yanaşı, həllin mərhələlərini aydın və ardıcıl şəkildə yazın.***
- ***Tapşırığın həllini sona qədər yaza bilməsəniz də, həll edə bildiyiniz yerə qədər yazın.***


22. 234 ədədinin 1; 3 və 5 ədədləri ilə düz mütənasib hissələrə bölünməsindən alınan ən kiçik ədəd hansı ədədin 45 %-nə bərabərdir?

Cavab:

23. İki düz xəttin kəsişməsindən alınan bucaqlar $5x - 24°$ və $2x + 57°$ olarsa, x-in mümkün qiymətlərinin cəmini tapın.

Cavab:

24. ABC bərabəryanlı üçbucağında AB = BC, G ağırlıq mərkəzi, AB = 58 sm, BG = $7x$ və GD = $3x + 2$ olarsa, AD-ni tapın.



Cavab:

25. $\frac{x^4 - y^4}{x^3 + x^2y + xy^2 + y^3}$ ifadəsinin sadələşdirin.

Cavab:

CamScanner ilə skan edilib

Sınaq 3


1. Hasili 315 olan ədədlər cütündən hansı qarşılıqlı sadə ***deyil***?
A) 1 və 315 B) 3 və 105 C) 5 və 63
D) 7 və 45 E) 9 və 35

2. k-nın hansı qiymətində $x^2 - 8x + k = 0$ kvadrat tənliyinin iki bərabər kökü var?
A) 32 B) 24 C) 16 D) 8 E) 4

3. $\frac{4}{3+\sqrt{5}} + \frac{4}{\sqrt{5}+1}$ ifadəsinin qiymətini hesablayın.
A) $4\sqrt{5}$ B) 8 C) $2\sqrt{5}$ D) 4 E) 2

4. Xaricdən toxunan iki çevrənin radiusları 6 sm və 24 sm olarsa, bu çevrələrin mərkəzləri arasındakı məsafəni tapın.
A) 18 sm B) 21 sm C) 24 sm
D) 27 sm E) 30 sm

5. $a_1 \perp b_1$, $a_2 \perp b_2$ və $\alpha = 4\beta - 108°$ olarsa, şəklə əsasən, α-nı tapın.
A) 18° B) 27°
C) 36° D) 54°
E) 72°




6. Kvadratın tərəfini 10 % artırsaq, perimetri neçə faiz artar?
A) 10 % B) 14 % C) 21 %
D) 40 % E) 44 %

7. a ədədinin əksi ilə tərsinin hasilini tapın.
A) $-a$ B) a C) -1 D) 1 E) 0

8. $x^2 - 4x - 2 = 0$ kvadrat tənliyinin kökləri x_1 və x_2 olarsa, kökləri $\frac{x_1}{x_2}$ və $\frac{x_2}{x_1}$ olan kvadrat tənliyi qurun.
A) $4x^2 - 2x + 1 = 0$ B) $2x^2 - 4x + 1 = 0$
C) $x^2 + 10x + 1 = 0$ D) $x^2 - 8x - 1 = 0$
E) $x^2 + 4x - 1 = 0$

9. Bərabərtərəfli ABC üçbucağının BC tərəfi üzərində D nöqtəsi qeyd olunub. BD = 5 sm və DC = 3 sm olarsa, AD-ni tapın.
A) 4 sm B) 4,5 sm C) 6 sm
D) 7 sm E) 7,5 sm

10. AB və CD vətərləri O nöqtəsində kəsişir. AO = 9 sm, CO = 3 sm və OD = 12 sm olarsa, BO-nu tapın.
A) 6,4 sm B) 6 sm
C) 5 sm D) 4 sm
E) 3,6 sm



11. $n(A \cap B) = 2 \cdot n(A \setminus B) = 3 \cdot n(B \setminus A)$ və $n(A \cup B) = 66$ olarsa, $n(A)$-nı tapın.
A) 60 B) 54 C) 48 D) 44 E) 40

12. $64^{-0,(6)}$ ifadəsinin qiymətini hesablayın.
A) $\frac{1}{2}$ B) $\frac{1}{4}$ C) $\frac{1}{8}$ D) $\frac{1}{16}$ E) $\frac{1}{32}$

13. $\frac{2x-k}{x^2-9}$ kəsri ixtisar olunandırsa, k-nın müm kün qiymətlərinin hasilini tapın.
A) 36 B) 18 C) 0 D) –18 E) –36

14. $\frac{2}{x+8} = \frac{1}{x+3}$ tənliyini həll edin.
A) 2 B) 3 C) 4 D) 5 E) 6

15. Bərabəryanlı üçbucağın yan tərəfinə çəkilən hündürlük digər yan tərəfi ilə 40°-li bucaq əmələ gətirirsə, oturacağı ilə əmələ gətirdiyi bucağı tapın.
A) 20° B) 25° C) 30° D) 40° E) 45°

16. Çevrənin 120°-li qövsünün uzunluğunun radiusuna olan nisbəti A-ya bərabər olarsa, A-nın tam hissəsini tapın.

CamScanner ilə skan edilib

17. $\sqrt{21}\cdot\left(\frac{\sqrt{7}}{\sqrt{3}}-\sqrt{\frac{3}{7}}\right)$ ifadəsinin qiymətini hesablayın.

18. 49-un b-yə bölünməsindən alınan qalıq 4 olarsa, b-nin mümkün qiymətlərinin sayını tapın.

19. Perimetri 64 sm olan üçbucağın tərəfləri 4 : 5 : 7 nisbətində olarsa, kiçik tərəfi neçə sm olar?

20. a-nın hansı qiymətində $ax + 4 = 2x + a$ xətti tənliyinin həlli ***yoxdur***?

21. x-in hansı qiymətində $\frac{2x-6}{3x-6}$ ifadəsinin mənası ***yoxdur?***

- ***Tapşırığın həlli üçün ayrılmış hissənin çərçivəsindən kənara çıxmayın.***
- ***Tapşırığın yekun cavabını qeyd etməklə yanaşı, həllin mərhələlərini aydın və ardıcıl şəkildə yazın.***
- ***Tapşırığın həllini sona qədər yaza bilməsəniz də, həll edə bildiyiniz yerə qədər yazın.***

22. $A = 13{,}5 \cdot 16{,}(8)$ olarsa, məxrəci A olan düzgün kəsrlərdən neçəsi ixtisar ***olunmayandır***?

Cavab:

23. Rəsm dərnəyində 15 oğlan və 20 qız məşğul olur. Dərnəyə əlavə bir neçə oğlan və qızların 35 %-i qədər qız gəldikdən sonra oğlanların sayının qızların sayına nisbəti 2 : 3 oldu. Dərnəyə əlavə gələn oğlanların sayını tapın.

Cavab:

24. $kx^2 - 7x + 3 = 0$ tənliyinin köklərindən biri 3 olarsa, köklərinin kvadratları cəmini tapın.

Cavab:

25. $\frac{3a^2+4ab+15ac+20bc}{6ab-3ac+8b^2-4bc}$ ifadəsini sadələşdirin.

Cavab:

CamScanner ilə skan edilib

Sınaq 4


1. $\overline{4x4y}$ ədədi 3-ə, 4-ə və 5-ə qalıqsız bölünürsə, x-in ala biləcəyi ən böyük qiyməti tapın.
A) 9 B) 8 C) 7D) 6 E) 5

2. Düzbucaqlı trapesiyanın üç daxili bucağı 4 : 5 : 6 nisbətində olarsa, kor bucağını tapın.
A) 156° B) 144° C) 132°
D) 120° E) 108°

3. $A = \{1, 2, 3, 4, 5, 6, 7\}$ və $B = \{4, 5, 6, 7, 8\}$ çoxluqları üçün $n((A \cup B) \setminus (B \cap A))$-ni tapın.
A) 12 B) 10 C) 8 D) 6 E) 4

4. $3x^2 - 12 = 0$ kvadrat tənliyinin kökləri hasilini tapın.
A) 12 B) 4 C) 0 D) –4 E) –12

5. $a \parallel b$ olarsa, şəklə əsasən, x-i tapın.
A) 10° B) 12°
C) 15° D) 18°
E) 20°



6. Tərəfləri 3 : 4 nisbətində olan düzbucaqlının diaqonalı 15 sm olarsa, perimetrini tapın.
A) 28 sm B) 42 sm C) 56 sm
D) 70 sm E) 84 sm


7. Bir daxili bucağı 160° olan düzgün çoxbucaqlının daxili bucaqlarının cəmini tapın.
A) 2880° B) 2700° C) 2520°
D) 2340° E) 2160°

8. k-nın hansı qiymətində $\begin{cases} 2x + ky = -6 \\ -5x + 3y = 15 \end{cases}$ tənliklər sisteminin sonsuz sayda həlli var?
A) 0,8 B) –1,2 C) 1,5
D) –1,8 E) 2,4

9. $\frac{x-1}{4(x^2+x)}$ və $\frac{x-2}{6(x^2-x)}$ kəsrlərinin ən sadə ortaq məxrəcini tapın.
A) $24(x^2 - x)(x^2 + x)$ B) $12(x^3 - 1)(x - 2)$
C) $24(x^3 - x)(x - 2)$ D) $12(x^3 - x)$
E) $12(x^2 - x)(x^2 + x)(x - 2)$

10. Kökləri 0,5 və –2 olan tənlik aşağıdakılardan hansıdır?
A) $(2x - 0{,}5)(x - 2) = 0$
B) $(x - 0{,}5)(x + 2) = 0$
C) $(x + 0{,}5)(2x - 2) = 0$
D) $(x - 0{,}5)(x - 2) = 0$
E) $(2x - 1)(x - 0{,}5) = 0$

11. M nöqtəsi AB parçasının orta nöqtəsidir. A və M nöqtələrin-dən a düz xəttinə qədər məsafələr uyğun olaraq 6 sm və 9 sm olarsa, B nöqtəsindən a düz xəttinə qədər məsafəni tapın.
A) 10 sm
B) 11 sm
C) 12 sm
D) 13 sm
E) 14 sm



12. Qabarıq 8-bucaqlının diaqonallarının sayını tapın.
A) 9 B) 14 C) 20 D) 27 E) 35

13. ΔABC-də $\angle A : \angle B : \angle C = 2 : 3 : 4$ olarsa, A bucağının tənböləni ilə C təpəsindən çəkilən hündürlük arasındakı kor bucağı tapın.
A) 100° B) 110° C) 120°
D) 130° E) 140°

14. $x^2 - 5x + 3 = 0$ kvadrat tənliyinin kökləri x_1 və x_2 olarsa, $(x_1)^3 + (x_2)^3$ ifadəsinin qiymətini tapın.
A) 90 B) 80 C) 70 D) 60 E) 50

15. $\frac{x^2+x-k}{x^2-9}$ kəsri ixtisar olunandırsa, k-nın mümkün qiymətlərinin cəmini tapın.
A) 18 B) 12 C) 9 D) 6 E) 0

16. Ata qızından 7 dəfə böyükdür, 2 il sonra isə 5 dəfə böyük olacaq. Ata qızından neçə yaş böyükdür?

CamScanner ilə skan edilib

17. Surəti 14 dəfə, məxrəci isə 5,6 dəfə azalan adi kəsrin qiyməti neçə dəfə azalar?

18. Düzgün çoxbucaqlının bir təpəsindən çəkilmiş bütün diaqonalları çoxbucaqlını 8 üçbucağa ayırır. Bu çoxbucaq-lının bir xarici bucağı neçə dərəcədir?

19. Kənar hədlərinin nisbəti 3 olan tənasübün orta hədlərinin hasili 75 olarsa, kənar hədlərinin cəminin müsbət qiymətini tapın.

20. Diaqonalı 8 sm olan düzbucaqlının tərəflərinin orta nöqtə-lərini birləşdirməklə alınan dördbucaqlının perimetri neçə sm-dir?

21. $\sqrt{56}$ ədədindən böyük olan ən kiçik tam ədədi tapın.

- ***Tapşırığın həlli üçün ayrılmış hissənin çərçivəsindən kənara çıxmayın.***
- ***Tapşırığın yekun cavabını qeyd etməklə yanaşı, həllin mərhələlərini aydın və ardıcıl şəkildə yazın.***
- ***Tapşırığın həllini sona qədər yaza bilməsəniz də, həll edə bildiyiniz yerə qədər yazın.***


22. Ədədi ortası 60 olan üç ədəddən birincisi 45-ə bərabərdir. İkinci ədəd birincidən 60 % çox olarsa, üçüncü ədədi tapın.

Cavab:

23. Düzbucaqlı üçbucağın katetlərinə çəkilən medianları 18 sm və $4\sqrt{11}$ sm olarsa, hipot-enuzuna çəkilən medianı tapın.

Cavab:

24. AB toxunan, AD kəsən, AC : CD = 4 : 9 və CD – AC = 10 sm olarsa, AB-nin uzunluğunu tapın.



Cavab:

25. Cəmi 75 olan A və B ədədlərini uyğun olaraq 28 % və 40 % artırdıqda alınan ədədlərin cəmi 32 % artırsa, A – B fərqini tapın.

Cavab:

CamScanner ilə skan edilib

Sınaq 5


1. Aşağıdakı ədədlər cütündən hansı qarşılıqlı sadədir?
A) 13; 26 B) 22; 24 C) 34; 51
D) 11; 55 E) 51; 52

2. $n(A) = 7$; $n(B) = 8$ və $n(A \cup B) = 12$ olarsa, $n(A \cap B) = ?$
A) 2 B) 3 C) 4 D) 5 E) 6

3. $\frac{1}{3}$-i su ilə dolu olan qaba 3 litr su əlavə etdikdə, qabın yarısı dolur. Qab neçə litr su tutur?
A) 30 litr B) 24 litr C) 18 litr
D) 15 litr E) 12 litr

4. Bucağa qonşu olan iki bucağın cəmi 160°-dir. Bu bucağı tapın.
A) 60° B) 70° C) 80° D) 90° E) 100°

5. Ədəd oxunda göstərilən A və B nöqtələrinə uyğun gələn ədədlər hansıdır?




A) $A = -\sqrt{5}$; $B = \sqrt{8}$ B) $A = -\sqrt{2}$; $B = \sqrt{3}$
C) $A = -\sqrt{3}$; $B = \sqrt{8}$ D) $A = -\sqrt{3}$; $B = \sqrt{10}$
E) $A = -\sqrt{5}$; $B = \sqrt{5}$

6. Katetləri nisbəti 3 : 4 və perimetri 24 sm olan düzbucaqlı üçbucağın xaricinə çəkilmiş çevrənin radiusunu tapın.
A) 2,5 sm B) 3 sm C) 4 sm
D) 5 sm E) 7,5 sm

7. $\sqrt{10 - \sqrt[4]{\frac{3}{2} + \sqrt[3]{-\frac{1}{8}}}}$ ifadəsinin qiymətini hesablayın.
A) 4 B) 3 C) 2 D) 1 E) 0

8. $2(x - 3) = 9 - x$ tənliyini həll edin.
A) –3 B) –1 C) 3 D) 5 E) 6

9. ABCD paraleloqramında BE parçası $\angle ABC$-nin tənbölənidir. $AD = 6$ sm və $AK : KC = 3 : 2$ olarsa, P_{ABCD}-ni tapın.
A) 24 sm
B) 30 sm
C) 36 sm
D) 42 sm
E) 48 sm




10. 7-bucaqlının diaqonallarının sayını tapın.
A) 7 B) 14 C) 18 D) 24 E) 28

11. $\begin{cases} x + y = 2a + 4 \\ x - y = 2 \end{cases}$ olarsa, xy hasilinin ən kiçik qiymətini tapın.
A) –5 B) –2 C) –1 D) 1 E) 2

12. $a^2 - 10a + 21$ ifadəsini vuruqlarına ayırın.
A) $(a - 3)(a + 7)$ B) $(a + 3)(a + 7)$
C) $(a - 3)(a - 7)$ D) $(a - 2)(a - 7)$
E) $(a + 3)(a + 5)$

13. Diaqramda Xaçmaz rayonunda aylar üzrə qeyd alınan orta temperatur verilmişdir. İyul ayındakı temperatur may ayındakı temperaturdan neçə faiz çoxdur?
A) 25 %
B) 30 %
C) 35 %
D) 40 %
E) 45 %



14. n tək natural ədəd olarsa, aşağıdakılardan hansı həmişə tək natural ədəddir?
A) $3n + 2$ B) $n + 1$ C) $3n + 5$
D) $n^2 + 7$ E) $5n + 5$

15. $A = \{0; 3; 4; 7\}$ və $B = \{1; 2; 5; 6; 9\}$ olarsa, $n(A \cap B) = ?$
A) 0 B) 1 C) 2 D) 3 E) 4


CamScanner ilə skan edilib

16. $P(x) = (a-2)x^2 + bx + c$ və $Q(x) = 6x^2 - 7$ çoxhədliləri üçün $P(x) = Q(x)$ olarsa, $a + b + c = ?$

17. $x : y = 7 : 5$ və $x + y = 48$ olarsa, $x - y$ fərqini tapın.

18. 1-dən 50-yə qədər 4-ə bölünən neçə natural ədəd var?

19. ΔBAC-də üçbucağında $BA \perp AC$, $BE = BD$ və $DC = CF$ olarsa, $\angle EDF$ neçə dərəcədir?



20. $\frac{x}{2} - 2 < \frac{x}{3}$ bərabərsizliyinin ən böyük tam həllini tapın.

21. Ardıcıl iki natural ədədin ƏBOB-u ilə ƏKOB-unun cəmi 43-dür. Bu ədədlərdən kiçiyini tapın.

- ***Tapşırığın həlli üçün ayrılmış hissənin çərçivəsindən kənara çıxmayın.***
- ***Tapşırığın yekun cavabını qeyd etməklə yanaşı, həllin mərhələlərini aydın və ardıcıl şəkildə yazın.***
- ***Tapşırığın həllini sona qədər yaza bilməsəniz də, həll edə bildiyiniz yerə qədər yazın.***


22. A nöqtəsindən radiusu 3 sm olan çevrəyə çəkilən toxunan 4 sm-dir. A nöqtəsindən çevrəyə ən yaxın məsafəni tapın.

Cavab:

23. $\begin{cases} 3x + 2y = 5 \\ x + y = 2 \end{cases}$ tənliklər sistemindən xy hasilini tapın.

Cavab:

24. ABC üçbucağının AC tərəfinə paralel düz xətt AB tərəfini D nöqtəsində və BC tərəfini E nöqtəsində kəsir. $AD : DB = 1 : 2$ və $AC = 18$ sm olarsa, DE-ni tapın.



Cavab:

25. $2a = 4b = 5c$ və $a + b + c = 57$ olarsa, $a - b - c$ fərqini tapın.

Cavab:

CamScanner ilə skan edilib

Sınaq 6


1. $A = \{a; b; c; d; e\}$ və $B = \{d; f; e; k\}$ olarsa, $A \cup B$ çoxluğunu tapın.
A) $\{a; b; c; e; f\}$ B) $\{a; b; c; d; f; k\}$
C) $\{a; b; c; d; e; f\}$ D) $\{a; b; c; d; e; f; k\}$
E) $\{d; e\}$

2. $\left(1\frac{2}{9}+0,(3)-0,(2)\right):\left(\frac{1}{2}-\frac{1}{3}\right)$ ifadəsinin qiymətini hesablayın.
A) 4 B) 2 C) $\frac{2}{3}$ D) $\frac{1}{3}$ E) 8

3. Uzunluğu 48 sm olan AB parçası üzərində C və D nöqtələri qeyd olunmuşdur. $AC : CB = 5 : 3$ və $AD : DC = 4 : 1$ olarsa, CD parçasının ən böyük qiymətini tapın.
A) 6 sm B) 8 sm C) 10 sm
D) 12 sm E) 16 sm

4. Aşağıdakılardan hansı ədəd oxunda 13 ədədindən 10 vahid məsafədə yerləşir?
A) 7 B) 11 C) 15 D) 19 E) 23

5. ABC üçbucağında BD-tənbölən, $\angle BCA = 50°$ və $\angle BDC = 100°$ olarsa, $\angle BAC$-ni tapın.
A) 69° B) 70°
C) 71° D) 72°
E) 73°



6. $\frac{x^2-36}{x^2+12x+36}\cdot\frac{6+x}{x-6}$ ifadəsini sadələşdirin.
A) $x+6$ B) -7 C) 1
D) $\frac{x+6}{x-6}$ E) $\frac{x-6}{x+6}$


7. Uzunluğu 16π sm olan çevrənin diametrini tapın.
A) 16 sm B) 8 sm C) 4 sm
D) 2 sm E) 1 sm

8. Paraleloqramın bir tərəfinə bitişik bucaqların nisbəti 1 : 4 olarsa, kiçik bucağı tapın.
A) 20° B) 24° C) 30° D) 36° E) 40°

9. $\frac{\sqrt{200}-\sqrt{32}}{\sqrt{8}}$ ifadəsinin qiymətini hesablayın.
A) 2 B) 3 C) 4 D) 5 E) 6

10. $|3x-12| = 3$ tənliyinin kökləri cəmini tapın.
A) 5 B) 4 C) -3 D) 8 E) -1

11. ABCDEF düzgün altıbucaqlı, AB = 12 sm olarsa, ABCF trapesiyasının orta xəttini tapın.
A) 15 sm B) 16 sm
C) 18 sm D) 20 sm
E) 21 sm




12. $4x - 7 < 5$ bərabərsizliyini həll edin.
A) $(-\infty;3)$ B) $(3;+\infty)$ C) $(-\infty;2)$
D) $(-\infty;6)$ E) $(6;+\infty)$

13. A(2; 3) nöqtəsi Ox oxuna nəzərən hansı nöqtəyə simmetrikdir?
A) (0; 3) B) (2; 0) C) (–2; 3)
D) (2; –3) E) (–2; –3)

14. Ən böyük ikirəqəmli ədəd ilə ən kiçik ikirəqəmli ədədin cəmi neçədir?
A) 19 B) 99 C) 100
D) 109 E) 110


15. Şəklə əsasən $B \setminus A$ çoxluğunun elementləri aşağıdakılardan hansıdır?
A) {a} B) {a; b}
C) {a; b; c} D) {c}
E) {b}



16. 5 fəhlə bir işi 15 saata görərsə, 3 fəhlə bu işi neçə saata görər?


CamScanner ilə skan edilib

17. Diaqramda malın alış və satış qiymətləri dərəcə ilə verilmişdir. Bu satışdan 320 manat gəlir əldə edilərsə, malın alış qiymətini tapın.



18. Ədədi 7-yə böldükdə qalıqda r alınır. r-in mümkün qiymətləri cəmini tapın.

19. ABC düzbucaqlı üçbucağında AD tənbölən, $\angle B = 90°$, $BD = 3$ və $DC = 6$ olarsa, $AD = ?$




20. Uyğun tərəfləri paralel olan bucaqların nisbəti 5 : 7 olarsa, bu bucaqların fərqini tapın.

21. $\frac{2}{3}$ hissəsi 14 olan ədədi tapın.

- ***Tapşırığın həlli üçün ayrılmış hissənin çərçivəsindən kənara çıxmayın.***
- ***Tapşırığın yekun cavabını qeyd etməklə yanaşı, həllin mərhələlərini aydın və ardıcıl şəkildə yazın.***
- ***Tapşırığın həllini sona qədər yaza bilməsəniz də, həll edə bildiyiniz yerə qədər yazın.***

22. $A = \{1; 2; 3; 5\}$, $B = \{1; 3; 6; 9\}$ və $C = \{4; 6; 7; 8\}$ olarsa, rənglənmiş hissələrin elementlərin sayını tapın.




Cavab:

23. $A = \{2, 4, 6, 8\}$, $B = \{2, 3, 5, 7\}$ və $C = \{7, 8\}$ olarsa, $(A \cup B) \setminus C$ çoxluğunun elementləri sayını tapın.

Cavab:

24. ABCDEF... düzgün çoxbucaqlı və $\angle APF = 60°$ olarsa, çoxbucaqlının tərəflərinin sayını tapın.



Cavab:

25. $8 < 2x + 4 < 18$ ikiqat bərabərsizliyinin tam həllərinin cəmini tapın.

Cavab:

CamScanner ilə skan edilib

Sınaq 7

1. $\frac{3}{7}$ hissəsi 21 olan ədədi tapın.

A) 56 B) 49 C) 42 D) 35 E) 21

2. a ədədi b ədədinin 200 %-i olarsa, b ədədi a ədədinin neçə faizidir?


A) 100 % B) 80 % C) 60 %
D) 55 % E) 50 %

3. Düzbucaqlı üçbucağın 30°-li bucağı qarşısındakı kateti 12 sm olarsa, hipotenuzuna çəkilmiş medianını tapın.

A) 6 sm B) 12 sm C) 18 sm
D) 20 sm E) 24 sm

4. Şəkildəki düzbucaqlı tərəflərinə paralel xətlərlə kiçik düzbucaqlılara bölünmüşdür. Rənglənmiş hissənin sahəsini çoxhədli şəklində göstərin.

A) $2x+3$
B) $2x+4$
C) x^2+3x+4
D) x^2+4x
E) x^2+4x+3



5. $\sqrt{8}+\sqrt{18}$ ədədinin tam hissəsini tapın.

A) 5 B) 6 C) 7 D) 8 E) 9

6. $x^2-5x+q=0$ kvadrat tənliyinin köklərindən biri 1 olarsa, q-nü tapın.

A) 1 B) 2 C) 3 D) 4 E) 5

7. $\begin{cases}\frac{1}{x}+\frac{1}{y}=\frac{5}{6}\\ \frac{2}{x}+\frac{3}{y}=\frac{13}{6}\end{cases}$ tənliklər sistemindən x-i tapın.


A) –1 B) 1 C) 2 D) 3 E) 4

8. a və b ardıcıl tək natural ədədlər olarsa, ƏBOB(a; b)-ni tapın.

A) 1 B) 2 C) 4 D) ab E) a + b

9. ABCD bərabəryanlı trapesiyasının daxilinə çevrə çəkilmişdir. M, N, P və K – toxunma nöqtələri, AM = 8 sm və MB = 2 sm olarsa, trapesiyanın sahəsini tapın.

A) 60 sm²
B) 72 sm²
C) 80 sm²
D) 96 sm²
E) 100 sm²



10. $x^2+2x+3>0$ bərabərsizliyini həll edin.


A) $(-\infty;0)$ B) $(0;+\infty)$ C) $\varnothing$
D) $(-1;-3)$ E) $(-\infty;+\infty)$

11. Üçbucağın bir təpəsindəki daxili bucağı xarici bucağına bərabərdir. Bu üçbucağın növünü təyin edin.

A) bərabərtərəfli üçbucaq
B) korbucaqlı üçbucaq
C) düzbucaqlı üçbucaq
D) itibucaqlı üçbucaq
E) belə üçbucaq yoxdur

12. Qrafiki verilən funksiyanın qiymətlər çoxluğuna daxil olan tam ədədlərin cəmini tapın.

A) 12 B) 9
C) 7 D) 3
E) 0



13. A = 3579 və B = 52862 olarsa, A·B hasilinin 5-ə bölünməsindən alınan qalığı tapın.

A) 0 B) 1 C) 2 D) 3 E) 4

14. Ədədin 45 %-i onun hansı hissəsidir?


A) $\frac{5}{9}$ B) $\frac{1}{3}$ C) $\frac{3}{5}$ D) $\frac{9}{25}$ E) $\frac{9}{20}$

15. $18 : x = 12 : 8$ tənasübündən x-i tapın.

A) 8 B) 10 C) 12 D) 16 E) 18

CamScanner ilə skan edilib

16. Şəklə əsasən, n(A) + n(B) cəmini tapın.



17. Kvadratın tərəfini 9 dəfə artırsaq, perimetri neçə dəfə artar?

18. $x + y = 4$ və $xy = 3$ olarsa, $x^3 + y^3 = ?$

19. Perimetri 56 sm və orta xətti 15 sm olan bərabəryanlı trapesiyanın yan tərəfi neçə santimetrdir?.

20. Düz xətt üzərində 4 nöqtə qeyd olunmuşdur. Alınan şüaların sayını tapın.

21. Ədəd oxunda 15 ədədindən 3 vahid məsafədə olan kiçik ədədi tapın.

- ***Tapşırığın həlli üçün ayrılmış hissənin çərçivəsindən kənara çıxmayın.***
- ***Tapşırığın yekun cavabını qeyd etməklə yanaşı, həllin mərhələlərini aydın və ardıcıl şəkildə yazın.***
- ***Tapşırığın həllini sona qədər yaza bilməsəniz də, həll edə bildiyiniz yerə qədər yazın.***

22. Oturacaqları $3a$ və $5a$ olan trapesiyanın orta xətti 6 sm olarsa, kiçik oturacağını tapın.

Cavab:

23. 25 nəfərlik konfrans iştirakçısından 15-i rus dilini, 17-si ingilis dilini və 11-i hər iki dili bilir. Təsadüfi olaraq seçilən bir nəfərin ingilis və ya rus dilini bilməsi hadisəsinin ehtimalını hesablayın.

Cavab:

24. k-nın hansı qiymətində $x^2 + kx + k^2 - 2k = 0$ kvadrat tənliyinin hər iki kökü sıfırdır?

Cavab:

25. $\frac{a}{b} = \frac{2}{3}$, $\frac{b}{c} = \frac{2}{5}$ və ƏKOB(a; c) = 120 olarsa, b-ni tapın.

Cavab:

CamScanner ilə skan edilib


Sınaq 8

1. –4,3 ədədinin tam hissəsini tapın.
A) 4 B) 5 C) –4 D) –3 E) –5

2. Üçbucağın iki daxili bucağı 70° və 60°-dir. Bu bucaqlara qonşu olmayan xarici bucağı tapın.
A) 130° B) 120° C) 110°
D) 150° E) 100°

3. $\frac{a+a^2-a^3-1}{a^2-1}$ ifadəsini sadələşdirin.
A) $1-a^2$ B) a^2-1 C) $a+1$
D) $a-1$ E) $1-a$

4. Şəkildə çevrə daxilində kəsişən iki vətər verilmişdir. Şəklə əsasən, x-i tapın.
A) 5 B) 6
C) 7 D) 8 E) 9



5. $\sqrt[3]{a\sqrt{a}}=3$ olarsa, $\sqrt{a+\sqrt{a}}=?$
A) $2\sqrt{3}$ B) $3\sqrt{2}$ C) $4\sqrt{2}$
D) 6 E) $4\sqrt{3}$

6. Kəsrin surətini 4 dəfə azaldıb məxrəcini 12 dəfə artırsaq, kəsrin qiyməti necə dəyişər?
A) 3 dəfə azalar B) 3 dəfə artar
C) 48 dəfə azalar D) 48 dəfə artar
E) 12 dəfə artar


7. Düzbucaqlı trapesiyanın $4\sqrt{2}$ sm olan kiçik diaqonalı trapesiyanı iki bərabəryanlı düzbucaqlı üçbucağa ayırır. Bu trapesiyanın orta xəttini tapın.
A) 6 sm B) $8\sqrt{2}$ sm C) 8 sm
D) 7,5 sm E) $5\sqrt{2}$ sm


8. Düzgün səkkizbucaqlının bir daxili bucağını tapın.
A) 160° B) 144° C) 135°
D) 126° E) 108°


9. $\begin{cases} x-y=9 \\ xy=3 \end{cases}$ sistemindən $\frac{1}{x}-\frac{1}{y}$ fərqini tapın.
A) –9 B) 9 C) –3 D) 3 E) 0


10. Tərəfi 10 sm olan rombun hündürlüyü tərəfini iki bərabər hissəyə bölür. Bu rombun sahəsini tapın.
A) 100 sm² B) $25\sqrt{3}$ sm²
C) $20\sqrt{2}$ sm² D) 50 sm²
E) $50\sqrt{3}$ sm²

11. $3x + 7 > x + 15$ bərabərsizliyinin həllər çoxluğunu ədəd oxunda göstərin.

A) 

B) 

C) 

D) 

E) 

12. A(3; 5) nöqtəsi hansı nöqtəyə nəzərən B(–1; –2) nöqtəsinə simmetrik olar?
A) (1; 1,5) B) (2; 5)
C) (–1; 1,5) D) (1; –1,5)
E) (–2; 1,5)

13. $y = x^2 - 6x + 12$ parabolasının təpə nöqtəsinin koordinatlarını tapın.
A) (1; 2) B) (3; 6) C) (6; 1)
D) (6; 12) E) (3; 3)

14. $\sqrt{25+144}$ ifadəsinin qiymətini hesablayın.
A) 17 B) 15 C) 13 D) 12 E) 11

15. Çevrə daxilinə çəkilmiş 50°-lik bucağın söykəndiyi qövsün dərəcə ölçüsünü tapın.
A) 75° B) 80° C) 100°
D) 125° E) 150°

CamScanner ilə skan edilib


16. $14 : x = 7 : 0{,}5$ tənasübünü həll edin.

17. $x^2 - (x_1 + 2)x + 3x_2 = 0$ kvadrat tənliyinin kökləri x_1 və x_2-dir. Bu tənliyin kökləri cəmini tapın.

18. Qonşu bucaqlardan biri digərindən $40°$ böyükdür. Bu bucaqlardan kiçiyini tapın.

19. a-nın neçə natural qiymətində $\frac{3a-1}{a+1}$ kəsrinin qiyməti natural ədəddir?

20. DABC-də BD tənbölən, AB = 6 sm, AD = 3 sm və DC = 5 sm olarsa, $P_{\Delta ABC} = ?$



21. 300 ədədinin 20 %-ini tapın.

- ***Tapşırığın həlli üçün ayrılmış hissənin çərçivəsindən kənara çıxmayın.***
- ***Tapşırığın yekun cavabını qeyd etməklə yanaşı, həllin mərhələlərini aydın və ardıcıl şəkildə yazın.***
- ***Tapşırığın həllini sona qədər yaza bilməsəniz də, həll edə bildiyiniz yerə qədər yazın.***


22. $y = 3x + 12$ düz xəttinin koordinat oxları ilə kəsişməsindən alınan üçbucağın sahəsini tapın.

Cavab:

23. $\sqrt[4]{8+\sqrt{60}} \cdot \sqrt{\sqrt{5}+\sqrt{3}} \left(\sqrt{5}-\sqrt{3}\right)$ ifadəsinin qiymətini hesablayın.

Cavab:

24. AB ∥ CD, AE tənbölən, və $\angle EKD = 35°$ olarsa, $\angle ACK = ?$



Cavab:

25. $y = x^2 - px + q$ parabolasının təpə nöqtəsi (2; 4) olarsa, q-nü tapın.

Cavab:

CamScanner ilə skan edilib

Sınaq 9

1. Uzunluğu 50 sm olan parça 5 bərabər hissəyə bölünmüşdür. II və V hissələrin ortaları arasındakı məsafəni tapın.
A) 35 sm B) 30 sm C) 40 sm
D) 45 sm E) 25 sm

2. $\frac{\sqrt{2}-1}{\sqrt{2}+1}$ ədədinin kəsr hissəsini tapın.
A) $\sqrt{2}$ B) $\sqrt{3}-2$ C) $3-2\sqrt{2}$
D) $2\sqrt{2}-3$ E) 0


3. Tərəfləri nisbəti 2 : 3 : 4 olan üçbucağın perimetri 63 sm olarsa, ən kiçik tərəfini tapın.
A) 7 sm B) 14 sm C) 21 sm
D) 28 sm E) 35 sm

4. $a + b = 6$ və $ab = 6$ olarsa, $\frac{a^3+b^3}{(a-b)^2+4ab}$ ifadəsinin qiymətini hesablayın.
A) 5 B) 4 C) 3 D) 2 E) 1

5. Radiusu $3\sqrt{5}$ sm olan O mərkəzli çevrənin AB vətərini C nöqtəsi 1 sm-lik və 9 sm-lik hissələrə bölür. OC parçasının uzunluğunu tapın.
A) 3 sm B) 4 sm C) 5 sm
D) 6 sm E) 7 sm

6. Paraleloqramın diaqonalı onun tərəfləri ilə 25° və 15°-li bucaqlar əmələ qətirir. Paraleloqramın kor bucağını tapın.
A) 100° B) 110° C) 120°
D) 130° E) 140°


7. ABCDF düzgün beşbucaqlı olarsa, ∠CBD-ni tapın.
A) 18° B) 24°
C) 32° D) 36°
E) 40°




8. Diaqonalları hasili 24 sm² olan rombun sahəsini tapın.
A) 18 sm² B) 16 sm² C) 15 sm²
D) 12 sm² E) 8 sm²

9. $\begin{cases} 3x < x+6 \\ 2-x < 2x-1 \end{cases}$ bərabərsizliklər sistemini həll edin.
A) $(1;3)$ B) $(-\infty;1)\cup(3;+\infty)$
C) $\{2\}$ D) $(-\infty;0]\cup[4;+\infty)$
E) $\varnothing$

10. Qrafiki verilmiş $y = ax^2 + bx + c$ funksiyası üçün aşağıdakılardan hansı doğrudur?
A) $a > 0$
B) $b > 0$
C) $c > 0$
D) $ac > 0$
E) $ab < 0$




11. Diaqramda şagirdlərin universitetlərə qəbul olanların sayı illər üzrə verilmişdir. 2008-ci ildə qəbul olanlar digər illərdə qəbul olanların neçə faizidir?
A) 24 % B) 30 %
C) 40 % D) 50 % E) 60 %



62. $n(A) = n(B) = 12$ və $n(A \cap B) = 4$ olarsa, $n(A \cup B)$-ni tapın.
A) 20 B) 22 C) 24 D) 26 E) 28

13. Sxemə əsasən, x-in mümkün qiymətləri çəmini tapın.



A) 21 B) 17 C) 15 D) 11 E) 7

14. Uyğun tərəfləri perpendikulyar olan eyniadlı bucaqlardan biri 40° olarsa, digərini tapın.
A) 140° B) 80° C) 50° D) 40° E) 20°

15. 3 ədədi 50 ədədinin neçə faizidir?
A) 1,5 % B) 3 % C) 4,5 %
D) 6 % E) 7,5 %

CamScanner ilə skan edilib


16. Satıcı 4 dəftər alana 1 dəftər hədiyyə edir. Satıcıdan hədiyyə edilmiş dəftərlərlə birlikdə 80 dəftər alan adam satıcıya neçə dəftərin pulunu verər?

17. 48 və 72 ədədlərinin ən kiçik ortaq bölünənini tapın.

18. $0,(a)+0,(b)+0,(c)=\frac{7}{12}$ olarsa, $a+b+c$ cəmini tapın.

19. 18 %-i 36 olan ədədi tapın.

20. $d_1 \parallel d_2$ olarsa, x bucağını tapın.



21. Radiusu 18 sm olan çevrənin ən böyük vətərinin uzunluğu neçə santimetrdir?

- ***Tapşırığın həlli üçün ayrılmış hissənin çərçivəsindən kənara çıxmayın.***
- ***Tapşırığın yekun cavabını qeyd etməklə yanaşı, həllin mərhələlərini aydın və ardıcıl şəkildə yazın.***
- ***Tapşırığın həllini sona qədər yaza bilməsəniz də, həll edə bildiyiniz yerə qədər yazın.***


22. Sadələşdirin: $\frac{\sqrt[3]{a^4b^2}\cdot\sqrt[3]{a^2b^4}}{\sqrt[5]{a^3b^2}\cdot\sqrt[5]{a^2b^3}}$

Cavab:

23. Sahəsi 750 m² olan düzbucaqlı şəklində torpaq sahəsinin ətrafına 110 m-ə bərabər hasar çəkilmişdir. Torpaq sahəsinin ölçülərini tapın.

Cavab:

24. O çevrənin mərkəzi, AO = 6 sm, OC = 8 sm və ∠AOC = 90° olarsa, BC neçə sm olar?



Cavab:

25. Torbada 2 yaşıl və 3 qara kürə var. Torbaya qaytarılmadan ardıcıl iki kürə çıxarılır. Bu kürələrin hər ikisinin qara olması hadisəsinin ehtimalını hesablayın.

Cavab:


CamScanner ilə skan edilib

Sınaq 10

1. Yeddi ədədin ədədi ortası 55-dir. Bu ədədlərə hansı ədəd əlavə olunsa, ədədi orta 70 olar?
A) 160 B) 175 C) 150
D) 70 E) 145

2. Düzbucaqlı üçbucağın düz bucaq təpəsindən hipotenuza çəkilən medianla hipotenuzun cəmi 24 sm olarsa, hipotenuzu tapın.
A) 12 sm B) 16 sm C) 18 sm
D) 8 sm E) 10 sm

3. a nəfər adam b manat pulu öz aralarında bərabər bölürlər. Adamların sayı 4 nəfər artarsa, bir nəfərə düşən pul neçə manat azalar?
A) $\frac{4b}{a(a-4)}$ B) $\frac{4b}{a(a+4)}$ C) $\frac{2b}{a(a-4)}$
D) $\frac{b}{a(a+4)}$ E) $\frac{b}{a(a-4)}$

4. AD-diametr, AB = BC və ∠BCD = 115° olarsa, a-nı tapın.


A) 140° B) 130°
C) 125° D) 120°
E) 110°

5. $\sqrt{6^2}\cdot\sqrt{(-4)^2}-\sqrt[3]{16}\cdot\sqrt[6]{16}$ ifadəsinin qiymətini hesablayın.
A) 8 B) 16 C) 20 D) 24 E) 30

6. Bir xarici bucağı 72° olan düzgün çoxbucaqlının perimetri 60 sm olarsa, tərəfinin uzunluğunu tapın.
A) 20 sm B) 15 sm C) 12 sm
D) 10 sm E) 7,5 sm

7. b-nin hansı qiymətində $\begin{cases}2x-by=8\\x-3y=6\end{cases}$ tənliklər sisteminin həlli ***yoxdur***?
A) –6 B) –3 C) 2 D) 3 E) 6


8. Tərəfləri 5 sm, 5 sm və 8 sm olan üçbucağın sahəsini tapın.
A) 4 sm² B) 6 sm² C) 8 sm²
D) 10 sm² E) 12 sm²

9. $2x - 8 < 20 - x$ bərabərsizliyinin ən böyük tam həllini tapın.
A) 9 B) 8 C) 7 D) 6 E) 5

10. Aşağıdakı ədədlər cütündən hansı qarşılıqlı sadə ***deyil***?
A) 15; 16 B) 9; 16 C) 5; 17
D) 19; 57 E) 16; 25

11. Rənglənmiş hissəni göstərin.
A) $(A\cap B)\cup C$ B) $A\cap(B\cup C)$
